# Tarixi əmanətlər üzə çıxır

**İşğaldan azad edilən Ağdam şəhərində və ətraf ərazilərdə çox kədərli, acı, ikrah doğuran, vəhşi, şərəfsiz və iyrənc bir mənzərə ilə rastlaşdıq. Otuz ilə yaxın bu qədim yurd yerimizi talan-qarət edən, insana yaraşmayan qəddarlıqla bütün qəbiristanlıqları məhv edən ermənilər həm də azərbaycanlılara və onun tarixi-mədəni abidələrinə qarşı soyqırımı törədərək qaniçən, nadan və qərəzli bir toplum olduğunu bir daha nümayiş etdirib. Qarabağın dilbər guşəsi, muğam mərkəzi, mənəvi dəyərləri, görkəmli alimləri, qəhrəman oğulları ilə məşhur olan Ağdam tarixi-dini, memarlıq abidələri və ziyarətgahları ilə çox zəngin, qədim bir rayon olub. Təəssüf ki, 1993-cü ilin iyul ayının 23-də Ermənistan və onun havadarları tərəfindən işğal edilən Ağdam şəhəri və kəndləri ermənilər tərəfindən xarabalığa çevrilib.**

İşğal nəticəsində Ağdam rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilib, yandırılıb, dağıdılıb və məhv edilib. Keçmiş sovetlər dönəmində, XX əsrin 50-ci illərindən sonra aparılan arxeoloji tədqiqatlar zamanı aydın olub ki, Üçoğlantəpə deyilən yerdə ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə yiyələnmişlər. Rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə aparılan arxeoloji tədqiqatlar zamanı eneolit və orta tunc dövrünə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkarlanıb.

Rayon ərazisində qədim tarixə malik yüzlərlə memarlıq, dini abidələr olub. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və müxtəlif tarixi dövrləri əks etdirən nadir mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib. Tədqiqatçı alim Rəşid Göyüşov tərəfindən aparılan tədqiqatlar nəticəsində məlum olub ki, ərəblərin Azərbaycanı fəth etdikdən sonra islamı ən son qəbul edən bölgə Ağdam olub. Qanlı müharibələrin getdiyi bu torpaq tariximizin ən dərin qatlarını qoruyub saxlamışdı. Sarıhacılı kəndindən 3 kilometr cənub-şərqdə Çinartəpə yaşayış yeri (e.ə. II-I minilliklər), Göytəpə kəndinin qərbində Göytəpə yaşayış yeri (tunc dövrü), Papravənd kəndinin cənub-şərqində Güllütəpə - II yaşayış yeri (son tunc dövrü, ilk orta əsrlər), Güllütəpə - I yaşayış yeri (III-XIII əsrlər), Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), Şeyx Nigari türbəsi, türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr) və türbəsi, iki sandığabənzər abidə (XVI əsr), o cümlədən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Ağdam şəhərinin Qaraağacı qəbiristanlığında Uğrulla bəyin türbəsi (XIX əsr), Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara, eləcə də rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr ermənilər tərəfindən qəsdən və bilərəkdən məhv edilib. Yəqin ki, ermənilər tərəfindən törədilmiş cinayətlər cəzasız qalmayacaq və canilər buna görə cavab verəcəklər. Onlardan qismən salamat qalan Ağdam Cümə məscidinin binasıdır. Hazırda Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidi əsaslı şəkildə təmir olunur.





Qeyd edək ki, 2020-ci il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində yerləşən Ağdam məscidini ziyarət ediblər. Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani- Kərim"i Ağdam məscidinə bağışlayaraq deyib: "Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq".

Ağdamda dünyada ikinci olan "Çörək muzeyi" ilə yanaşı, tarzən Qurban Pirimovun xatirə muzeyi, Ağdam Şəkil Qalereyası və digər memarlıq nümunələri erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılıb. Ümumilikdə, ermənilər tərəfindən 130-dan çox tarixi abidə və maddi-mədəniyyət nümunəsi yer üzündən silinib. Goreşən kimi torpaqlarımızı pis günə qoyan erməni faşistləri nə qədər çalışsalar da tariximizi, izimizi bu yerlərdən silə bilməyiblər, torpaq öz qoynunda qədim tariximizin əmanətlərini qoruyaraq saxlayıb. Qeyd edək ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən müvafiq qaydada monitorinqlər və mühafizə tədbirləri həyata keçirilir.

Bu yaxınlarda rayonun Mireşelli kəndində yerləşən Şomullutəpə və Paşabəyli kəndində yerləşən Rəsultəpə yaşayış yerində yağış sularının yuyulması nəticəsində qədim və orta əsrlərə aid küp qalıqları və saxsı qabların parçalanmış hissələri aşkar edilib. Aşkarlanmış bütün küp qalıqları Ağdam Tarix - Diyarşünaslıq muzeyinə təhvil verilib. Hələ bu torpaqlarda qədim və nadir əmanətlər işıq üzü görməyib, məhz buna görə də arxeoloqların və tədqiqatçıların görəcəyi işlər qarşıdadır...

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 9 avqust.- S. 3.